Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

**Mövzu:** *"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# Mənəvi dəyərlərimizin kökü əməli-salehlik və əxlaqi saflıqdır



**MƏNƏVİYYAT** insanın daxili dünyasıdır. Orada gözəllik də var, çirkinlik də, mərdlik də var, namərdlik də, şərafət də var, qəbahət də...ikincilərin qarşısını vaxt ikən müdrik ağıl, sarsılmaz iradə və milli mentalitet adı özünüdərk çəpərləri ilə elə sədləməliyik ki, onlar gözəgörünməz yollarla qanımıza hopub birinciləri erroziyaya uğratmasınlar. Gənclərimiz bunlar arasında müsbət olanlara sadiq qalsınlar. Bu barədə Könül Səmədzadə yazıb. O bildirib ki, gənclər tərəfindən milli adət-ənənələrin öyrənilməsi və onların mənəvi dəyərlər sisteminə çevrilməsi həmişə aktual olub. Çünki tarixin bütün dövrlərində millətin və xalqın ictimai şüur səviyyəsini əks etdirən adət və ənənələr məkanında klassikləşib və mədəni irsə çevrilib. Yeni yaranan mənəvi dəyərlər də varislik prinsiplərinə uyğun olaraq əski adət və ənənələrdən bəhrələnib. Lakin bu, mənəvi dəyərlərin inkişafına, yeniləşməsinə mane olmayıb. Sadəcə olaraq adət və ənənə formasında mənəvi mədəniyyətin tarixi təcrübəsinə yeni istiqamətləri yaranıb.

Mənəvi dəyərlərimizin kökü əməli-salehlik və əxlaqi saflıqdır; mənəvi təmizlik və büllurluqdur; halallıq və gözütoxluqdur; xeyirxahlıq və mərdanəlikdir...Bunların hamısının zirvəsində isə adil vicdan dayanır. “Biz öz mənəvi dəyərlərimizlə, adətənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adətənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir. Ailələrimizdə böyüyə hörmət, ata-anaya sevgi, ehtiramla davranmaq, kiçiklərə qayğı, diqqət əsas göstəricilərdəndir. Bizim gənclərə örnək olan əxlaq, tərbiyə simvolu, məhəbbət etalonu kimi daim hörmətlə anılan nümunəvi ailələrimiz çoxdur”- o deyib. Onun sözlərinə görə gənclərimizi də bu ruhda tərbiyyə etməliyik.

Bu səbəbdən bu gün Azərbaycan Respublikasının ümumtəhsil və ali məktəbləri qarşısında son dərəcə böyük, şərəfli vəzifələr durur. Müasir gənclərimizə Azərbaycan mənəviyyatı, Azərbaycan mentaliteti, dili və ədəbiyyatı, Azərbaycan tarixi, Azərbaycan coğrafiyası, incəsənəti, habelə zəngin maddi və mənəvi sərvətlərimiz barəsində dərin və hərtərəfli biliklər verilməli, yetişən gənc nəsildə yüksək mədəniyyət, mənəviyyat, vətənpərvərlik hissləri formalaşdırılmalıdır. Ulu öndərimiz, xalqımızın ümummilli lideri Heydər Əliyev məhz bu məsələlər barəsində dəfələrlə çox dəyərli fikirlər söyləmiş və təhsilimizin qarşısında böyük vəzifələr qoymuşdur: “Biz keçmişlərdən fərqli olaraq indi müstəqil Azərbaycanın gələcəyini formalaşdırırıq, müstəqil Azərbaycanın vətəndaşlarını formalaşdırırıq və məktəbdə, universitetdə formalaşan gənc Azərbaycanın gələcək fəal vətəndaşı gərək birincisi, mənəviyyatca saf olsun. Ona görə də, gərək mənəvi saflıq ali məktəblərdə, orta məktəblərdə hökm sürsün. Gərək o, vətənpərvərlik hissi ilə yaşasın, vətənpərvərlik hissi ilə tərbiyə olunsun. Ona görə də, gərək onun müəllimləri, tərbiyəçiləri özləri vətənpərvər olsunlar, vətənpərvərliyi gənclərə aşılaya bilsinlər”.

Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov isə deyib ki, Azərbaycan dövlətinin hər zaman gənclərdən umduğu bir məsələ var ki, o da dövlətçilik, vətənpərvərlik hissləridir. PA rəsmisi bildirib ki, o dövlətin gənclərinin həyatı dolğun, firavan, rahat olur ki, həmin dövlətin gənclərinin böyük əksəriyyəti təhsilli, mədəniyyətli olur, başqa dillərə, mədəniyyətlərə tolerant yanaşır, ətraf aləmdə mövcud olan yenilikləri kifayət qədər qavrayıb öz ölkəsinin, dövlətinin dilinə, mədəniyyətinə tətbiq etmək baxımından praktik olur: "Sizin hər biriniz bir ailənin övladısınız, bir nəslin nümayəndəsisiniz, eyni zamanda, sizin hər biriniz Azərbaycan dövlətinin vətəndaşısınız, azərbaycanlısınız. Bu da hər bir insanın üzərinə əlavə bir məsuliyyət qoyur. Bu məsuliyyət nədir? Bu, dövlətin, xalqın mövcud varidatına sahib çıxmaq, onu inkişaf etdirmək, daxili, xarici təqiblərdən, təhdidlərdən, bizə qarşı yönələn təyziqlərdən qorunma işində öz çiyinlərinizi bəlli sütunlar altına vermək, bəzi yükləri öz çiyinlərinizə götürmək, dövlətimizə, millətimizə sahib çıxmaqdır. Biz də gələcəyimizə tam əmin ola biləcəyik ki, gənclər dünyada rəqabətədavamlılıqla bərabər milli təəssübün daşıyıcılarıdır".

Ə.Həsənov bildirib ki, Azərbaycan Respublikasının bugünkü gənclər siyasətinin, daxili milli siyasətinin, sosial siyasətinin və informasiya siyasətinin də təməlində insan dayanıb, Azərbaycan vətəndaşı dayanıb: "Bu siyasətin təməlində ümummilli lider Heydər Əliyevin dərin zəkası, konseptual yanaşması və təməlini qoyduğu azərbaycançılıq durub. 1993-2003-cü illər ərzində formalaşan, həyata keçirilən bu siyasətin xüsusi qanadını gənclər siyasəti təşkil edir. Və bu gün də Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas qayəsi məhz Azərbaycan insanı, onun zənginləşdirilməsi, həyatının firavanlaşdırılması, getdikcə dünyada mövcud olan texniki, sosial, mədəni, mənəvi və digər yeniliklərlə dolğunlaşdırılması və Azərbaycan dövlətinin daxili həyatında bir tamlıq yaradılmasından ibarətdir".

PA rəsmisinin sözlərinə görə, ilk növbədə, informasiya-kommunikasiya texnologiyalarının verdiyi imkanlardan gənclərin istifadəsinin dolğunlaşdırılması, asanlaşdırılması və gənclərin bu sahədə olan biliklərə yiyələnməsi, ikincisi, gənclər siyasətinin özünün dolğunlaşdırılması, gənclərin qəlbinin dərinliklərində yatan ideyaların, təşəbbüslərin sosial bloqlara çıxarılaraq bölüşdürülməsi və ən əhəmiyyətli olanlarının dövlət siyasətinə tətbiq olunması, üçüncü isə sosial məsələ - gənclərin mövcud həyatının, biliklərinin, mövcud vərdişlərinin, ailədə aldığı tərbiyənin dövlətə, dövlətçiliyə bağlılıqla bağlı dövlətimizin, millətimizin inkişafına yönəldilməsi və tətbiq olunmasıdır.

Şöbə müdiri bildirib ki, Prezident İlham Əliyevin bu gün yürütdüyü siyasət nəticəsində Azərbaycan yüksək yerlərə gəlib çatıb: "Azərbaycan artıq kosmik ailənin üzvüdür. Bölgədə kosmik ailənin üzvü olan neçə dövlət var? Postsovet məkanında bu ölkələr Rusiya, Qazaxıstan, Ukrayna və Azərbaycandır. Dünyada 55-60 belə dövlət var. Nə qədər qürurdoğurucu bir haldır ki, bu 55-60 dövlətin sırasında biz də varıq".

Ə.Həsənovun sözlərinə görə, Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi də xarici siyasətimizin uğurudur: "Dünyada nə qədər ölkə buna nail olub? Postsovet məkanında yenə Rusiya, Ukrayna, Qazaxıstan və Azərbaycan. Bu anlamda Azərbaycan bu gün bölgənin Türkiyə, Rusiya, Ukrayna, İran kimi dövlətləri ilə bir sırada dayanan dövlətdir. Azərbaycan iqtisadi qüdrəti, adambaşına düşən ümumk daxili məhsulun həcmi, sənaye potensialı üzrə onların bəzilərindən yüksəkdə durur. Bu istiqamətdə gedən inkişaf gənclərdə bir tərəfdən məsuliyyət, bir tərəfdən qürur hissi yaradır. Bir tərəfdən siz bu dövlətin yaratdığı imkanlardan istifadə edirsiniz, digər tərəfdən onları qorumaq məsuliyyəti sizin üzərinizə düşür. Azərbaycanın təbliğatını xarici aləmdə aparmaq vacibdir. O mədəniyyətlər, o xalqların adət-ənənələri yaşayacaq ki, onlar güclüdür, ona sahib çıxan həmin xalqın gəncliyi var. Siz dünyada ən yaxşı azərbaycançılığın nümunəsi ola bilərsiniz. Azərbaycan dövləti həmişə sizinlədir, sizin arxanızdadır".

*(davamı var)*

*Yazı Azərbaycan Respublikası Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə dərc edilib.*